*Uğur hekayələri*

# Olimpiada həyəcanı, medal sevinci

Xəbər verildiyi kimi, məktəblilərimiz yanvarın 13-dən 17-dək Astanada keçirilən riyaziyyat, fizika və informatika üzrə XXI Beynəlxalq Jautıkov Olimpiadasında (IZhO 2025) iştirak ediblər. Şagirdlər arasında fizika-riyaziyyat elmlərini təbliğ etmək, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, müxtəlif ölkələrin ixtisaslaşmış məktəbləri arasında dostluq münasibətləri qurmaq, təcrübə mübadiləsi aparmaq məqsədilə keçirilən olimpiadada ümumilikdə 15 ölkədən 700-dən çox məktəbli iştirak edib. Olimpiadanın iki turunun yekununa görə, Azərbaycan məktəbliləri bir qızıl və yeddi bürünc medal qazanıblar. Onlar öz təəssüratlarını, əldə etdikləri nailiyyətlərini, gələcək hədəflərini "Azərbaycan müəllimi" ilə bölüşüblər.

21ST IZHO 2025 INTERNATIONAL ZHAUTYKOV OLYMPIAD

# Məktəblilərimiz Qazaxıstandan 8 medalla qayıtdılar

## "Top universitetlərin birində təhsil almaq istəyirəm"

Ayxan Dəmirli bu il keçirilən XXI Beynəlxalq Jautıkov Olimpiadasında ölkəmizi uğurla təmsil edərək qızıl medala layiq görülüb.

Ayxan Dəmirli Bakı şəhəri Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdidir. O, 2024-cü ildə Beynəlxalq İnformatika Olimpiadasında bürünc medal, Beynəlxalq Jautıkov Olimpiadasında, Mərkəzi-Avropa İnformatika Olimpiadasında, Avropa Yeniyetmələrin İnformatika Olimpiadasında gümüş medal, "İnfO(1)Cup" Proqramlaşdırma Müsabiqəsində qızıl medal qazanıb. Eyni zamanda, IX və X siniflərdə Respublika fənn olimpiadasında informatika fənni üzrə qızıl medala layiq görülüb: "Hər olimpiadadan əvvəl seçmə imtahanı olur, orada ən yüksək nəticə göstərən şagirdlər olimpiadada iştirak edə bilirlər. Olimpiadaya hazırlıq informatika sahəsindəki biliyimi daha da təkmilləşdirməyə şərait yaratdı. Gələcək olimpiadalara təcrübə qazanmış oldum. Keçən il bu yarışda gümüş medal əldə etdim, bu səfər qızıl medala nail olaraq özümə inamımı artırdım. Gələcək olimpiadalarda yaxşı nəticə göstərmək və top universitetlərin birində kompüter elmləri üzrə təhsil alıb bu sahədə nailiyyətlər və uğurlar qazanmaq istəyirəm".



Ayxan Dəmirli



Hüseyn Zeynalov



Oktay Lətifli



Tahir Əliyev



Əli Əliyev



Əhməd Qəmbərli



Raiq Babazadə



Murad Xəlil

## "Riyaziyyata olan sevgim və əzmlə çalışmağım məni uğura apardı"

Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin IX sinif şagirdi Hüseyn Zeynalov olimpiadada bürünc medal qazananlardandır. O deyir ki, beynəlxalq səviyyəli olimpiada olduğundan burada iştirak edənlər yalnız ölkənin keçirdiyi xüsusi seçmə imtahanından yüksək bal toplayan şagirdlərdir: "Mən bu seçmə imtahanda riyaziyyat fənni üzrə iştirak etdim və yüksək bal topladım. Mənim imtahanda bürünc medal almağımın əsas səbəblərindən biri riyaziyyata olan sevgim və əzmlə çalışmağımdır. Bu, məni uğura aparan əməyimin qarşılığı oldu. Beynəlxalq Jautıkov Olimpiadasında iştirakımdan əvvəl Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadasında da gümüş medal qazanmağa nail olmuşam. Gələcək planlarımda nailiyyətlərimi artırmaq, özümü daha da təkmilləşdirmək və istədiyim universitetə qəbul olmaq var".

## "Bu olimpiada vaxtı düzgün bölmə, çətin vəziyyətdə doğru qərarvermə bacarıqlarımı inkişaf etdirdi"

Bu tədris ilinin sentyabrında beynəlxalq olimpiadalarda hazırlıq qrupuna qəbul olaraq xüsusi dərslərə qoşulan Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Oktay Lətifli Təhsil Texnologiyaları Mərkəzində intensiv hazırlıqlardan sonra dekabrda Beynəlxalq Jautıkov Olimpiadasına seçmə imtahanında iştirak edib: "Həmin imtahanda uğurlu nəticə göstərərək IZhO-da iştirak hüququ qazandım. Yanvarın 13-17 aralığında Astanada keçirilən olimpiadada həm nəzəri, həm təcrübi imtahan ballarının yekununda bürünc mükafata layiq görüldüm. Bu olimpiada vaxtı düzgün bölmə, çətin vəziyyətdə doğru qərarvermə bacarıqlarımı inkişaf etdirdi. Bu, mənim RFO-nun finalından sonrakı ilk təcrübə imtahanım idi".

O, Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadası (IOAA) və "İstedadların hazırlığı laboratoriyası" olimpiadasında iştirak edərək həvəsləndirici mükafat və bürünc medal qazanıb. Oktay Respublika fənn müsabiqələrində VII sinifdə fizika fənni üzrə gümüş, IX sinifdə bürünc, X sinifdə gümüş, Azərbaycan Astronomiya Olimpiadasında IX sinifdə bürünc, X sinifdə qızıl medal qazanıb.

Hədəfi növbəti olimpiadalara daha yaxşı köklənməkdir: "Gələcəkdə olimpiadalarda daha yaxşı nəticələr qazanıb bayrağımızı yenidən dalğalandırmaq istəyirəm. Əsas hədəfim nüfuzlu xarici universitetlərin birində təhsil almaqdır".

## "Məqsədim Beynəlxalq Fizika Olimpiadasında qızıl medal qazanmaqdır"

Olimpiadalarda uğur qazanmağın yeganə yolunun çox çalışmaq olduğunu dilə gətirən Raiq Babazadə Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdidir. O, 2024-cü ildə Avropa Fizika Olimpiadasında və Beynəlxalq Fizika Olimpiadasında iştirakçı olub:

"VII sinifdə oxuyanda fizika müəllimim Seyran Səfərov məndə fizikaya qarşı çox böyük maraq yaradıb. Nəticədə qərara gəldim ki, fizika olimpiadalarında iştirak etməyə başlayım. Mənim bu fənnə olan marağım daim fizika üzrə çalışmağıma motivasiya oldu. Respublika fənn olimpiadalarında iştirak edərək bürünc və qızıl medallara layiq görülmüşəm. Əslində beynəlxalq yarışmada bürünc medal qazandığıma görə sevinirəm. Lakin bunun kifayət olmadığını düşünürəm. Digər beynəlxalq fizika olimpiadalarına hazırlaşmağa davam edəcəyəm. Buna görə də səylə çalışmağı hədəfləmişəm. Məqsədim Beynəlxalq Fizika Olimpiadasında qızıl medal qazanmaqdır".

## "Olimpiadalarda əldə etdiyim uğurlar mənim motivasiyamı artırır"

Ankara məktəb-liseyinin XI sinif şagirdi Əli Əliyev İnformatika və proqramlaşdırma sahəsinə böyük marağının olduğunu deyir. Bu marağı "Azercell Cup 2021" olimpiadasında iştirakından sonra yaranıb, hansı ki, onun birinci iştirak etdiyi olimpiada olub: "İkinci müsabiqəm 2021-ci ildə Bakıda keçirilən "Rəqəmsal bacarıqlar" layihəsində olub və I yerlə təltif olundum. VIII, IX siniflərlə RFO olimpiadasında "İnformatika" fənnindən qızıl medala layiq görüldüm. İlk beynəlxalq olimpiada təcrübəm 2022-ci ildə Rumıniyada keçirilən "JBOİ" (Junior Balkan Olympiad in Informatics) olimpiadasında olub və bürünc medal qazandım. Həmin ildə Bolqarıstanda keçirilən SHUMEN IATI informatika olimpiadasında, "Juniorlar" kateqoriyasında bürünc medalla təltif olundum. 2023-cü ildə Qazaxıstanda keçirilən IZhO olimpiadasında da iştirak etmişəm. Həmin ildə Rumıniyada keçirilən "İnfO(1)Cup" proqramlaşdırma müsabiqəsində gümüş medal qazandım. IX sinifdə informatika fənni üzrə Respublika fənn olimpiadasında qızıl medala layiq görüldüm. 2024-cü ildə IZhO olimpiadasında bürünc medal qazandım. Bu il isə IzhO-dan növbəti bürünc medal əldə etdim".

Məktəblimiz vurğulayıb ki, yaşıdlarının, eləcə də özünün əldə etdiyi nailiyyətlər yerli olimpiadalara qatılan bir sıra seçilmiş uşaqlar arasında olub: "Hazırda nazirliyin təşkil etdiyi beynəlxalq olimpiadalara hazırlıq dərslərinə qatılıram. Düşərgələr təşkil olunur və respublikanın regionlarına da gedirik. Bəzən isə sərhəddən kənarda təşkil olunur. Dövlətimiz tərəfindən 2023-cü ildə seçilmiş uşaqlarla İspaniyaya hazırlıq düşərgəsinə göndərilmişdik. Olimpiadalarda əldə etdiyim uğurlar mənim motivasiyamı artırır, növbəti hədəflərimə fokuslanmağıma səbəb olur. Gələcəkdə növbəti yerli və beynəlxalq olimpiadalarda uğurlu nəticə göstərmək, təhsilimi xaricdə davam etdirmək istəyirəm. "Kompüter elmləri", "Proqramlaşdırma" ixtisasları üzrə təhsil almaq niyyətindəyəm".

## "Bürünc məni sevindirsə də, qane etmir"

Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Tahir Əliyev informatika olimpiadalarına marağının yaranmağını böyük qardaşından qaynaqlandığını vurğulayıb:

"Qardaşım da beynəlxalq və yerli olimpiada iştirakçısı və qalibi olub. O, öyrəndiklərini, olimpiada təcrübələrini mütəmadi olaraq mənimlə bölüşüb. Deyə bilərəm ki, onun keçdiyi dərslər sayəsində olimpiadalarda bir çox uğurlar qazanmışam. Belə ki, İnformatika üzrə Respublika fənn olimpiadalarında gümüş və qızıl medal, Mərkəzi Avropa üzrə Beynəlxalq İnformatika Olimpiadasında bürünc medal əldə etmişəm. IzhO-dan aldığım bürünc məni sevindirsə də, qane etmir. Olimpiadaya gümüş medal qazanmağı istəyi ilə getmişdim. Məqsədim gələcək olimpiadalarda daha yaxşı nəticələr əldə etməkdir. Bir çox olimpiada iştirakçısı kimi mən də top universitetlərə qəbul almaq istəyirəm".

## "Gələcək hədəfim daha yüksək nəticə əldə etməkdir"

Bakı Türk Anadolu liseyinin X sinif şagirdi Əhməd Qəmbərli də XXI Beynəlxalq Jautıkov Olimpiadasında bürünc medal qazanan məktəblimizdir. O da "Azercell Cup" yarışmasına qatıldıqdan sonra informatika olimpiadasına marağının yarandığını bildirib: "Olimpiadalarda iştirak, ilk növbədə, vaxtımı daha səmərəli keçirməyimə, sosiallaşmağıma, yeni insanlar tanımağıma şərait yaratdı. Qalibiyyətlərim informatikaya qarşı marağımı daha da artırdı. Belə ki, Avropa Gənclər İnformatika Olimpiadası (EJOİ) və Beynəlxalq Jautıkov Olimpiadasında (İZhO), yerli yarışlardan isə "Azercell Cup", "Paşa Cup" və Respublika İnformatika Olimpiadasında iştirak etmişəm. Gələcək hədəfim bu sahədə daha rəqabətli yarışmalarda yüksək nəticə əldə etməkdir".

## "Növbəti olimpiadalarda da ölkəmizi ən yaxşı şəkildə təmsil edəcəyimə inanıram"

Uşaqlıqdan fizikaya böyük marağı olan Murad Xəlil Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyində X sinifdə oxuyur. Bürünc medal qazandığı Beynəlxalq Jautıkov Olimpiadası onun iştirak etdiyi ilk beynəlxalq olimpiadadır: "Olimpiadaların keçirilməsindən xəbər tutanda özümü sınamaq qərarına gəldim. Müvəffəqiyyət əldə etdikcə fizika fənninə marağım daha da artdı və bu yolu seçdiyimə görə çox xoşbəxtəm. Bu olimpiadadan başqa, 2 dəfə Respublika fənn müsabiqələrində və olimpiadalarında iştirak etmişəm. Düşünürəm ki, məktəblilərin bu cür yerli yarışlara daha çox cəlb olunması ölkəmizin beynəlxalq olimpiadalarda daha yaxşı nəticələr göstərməsinə gətirib çıxaracaq. Hələ yolun yarısında belə olmadığımı bilirəm. Daha çox çalışıb növbəti olimpiadalarda da ölkəmizi ən yaxşı şəkildə təmsil edəcəyimə inanıram. Buna görə də hədəflərimi yüksək tutmağa çalışıram".

**Tünzalə QULİYEVA**